İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

*parlaq imzalar*

Kitabın sahibi: _____

Oxu tarixi: _____

Ürək ver: 

# EDAMA MƏHKUMUN SON GÜNÜ

VİKTOR HÜQO

Fransız dilindən tərcümə:

Şamil Zaman

parlaq
İMZALAR

Baş redaktor: Toğrul MUSAYEV

Redaktorlar: Əzizağa HÜMBƏTƏLİYEV
Toğrul MUSAYEV

Korrektor: Turac ELDARQIZI

Tərtibatçı: İsmayıl SÜLEYMANLI

Cildin dizayneri: Bayram QAFAROV

**Victor Hugo**
**LE DERNIER JOUR D'UN CONDAMNÉ**

**Viktor Hüqo**
**EDAMA MƏHKUMUN SON GÜNÜ**

Bakı, “Parlaq İmzalar” Nəşriyyatı – 2026, 176 səh. / IV nəşr

**© Şamil Zaman / 2002**
**© Parlaq İmzalar MMC / 2017**
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 45
Klassiklər seriyası | 3



www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

16+

Mətbəə: “AVE PRİNT” MMC
SENTYABR / 2026

**Viktor Hüqo** 1802-ci il fevral ayının 26-da Fransanın Bezanson şəhərində anadan olub. İlk kitabı "Odalar və müxtəlif şeirlər" 1822-ci ildə çap olunub. 1848-ci il inqilablarından sonra deputat seçilib. Onu məşhurlaşdıran ilk kitabı "Paris Notr-Dam kilsəsi" romanıdır. 1862-ci ildə isə dünya ədəbiyyatının incisi hesab olunan "Səfillər" romanı nəşr olunub. 1851-1870-ci illərdə siyasi səbəblər üzündən sürgündə yaşayıb. Sürgün illərində "Dəniz zəhmətkeşləri" və "Gülən adam" romanlarını yazıb.
Hüqo hələ uşaqlıqdan tanıdığı Adel Fuşe ilə ailə həyatı qurub. Bu evlilikdən yazıçının beş övladı dünyaya gəlib. Qızı Leopoldinanın Sena çayında boğulması ona çox ağır təsir edib. Bu bədbəxt hadisədən sonra Hüqo daha çox siyasətlə məşğul olub. Böyük yazıçı 1885-ci il may ayının 22-də vəfat edib.

**Şamil Zaman** 1936-cı il mart ayının 12-də Şərur rayonunun Çərçiboğan kəndində anadan olub. 1956-1962-ci illərdə Azərbaycan Dillər Universitetinin Fransız dili fakültəsində təhsil alıb. Ədəbi yaradıcılığa 1961-ci ildə "Şəfəq" almanaxında çap edilmiş "Çay" şeiri ilə başlayıb. Şeir və poemalarından ibarət "Söyüd bilməsin", "Zamana sözüm", eyniadlı povesti daxil edilmiş "Partizan Nağı" kitablarının müəllifidir. Şamil Zamanın yaradıcılığında bədii tərcümə xüsusi yer tutub: P. Merimenin "Məhəbbət ilahəsi", A. Breyanın "Bir balaca parislinin həyatı", V. Hüqonun "Edama məhkumun son günü" və bir çox əsərlərin tərcüməçisidir.
İstedadlı şair-tərcüməçi 2016-cı ildə dünyasını dəyişib.

# Mündəricat

Ön söz_____ 9

Faciə barəsində komediya_____11

Edama məhkumun son günü_____25

1832-ci il nəşrinə əlavə_____135

# Ön Söz[1]

Bu kitabın meydana çıxmasının səbəbini iki cür başa düşmək olar: ya doğrudan da, müxtəlif ölçülü bir yığın sarı vərəqlərdə hansı bədbəxtinsə son fikirləri bütün təfərrüatı ilə yazılmış və bu vərəqlər sonradan kim tərəfindənsə tapılmışdır; ya da ki, bu fikirləri qələmə alan – filosofmu, şairmi, nə bilim, kimsə, – elə adam olmuşdur ki, o, sənət naminə həyatı öyrənməyə alüdə olmuşdur; qısası, bu adam buradakı fikirləri ya özü uydurmuş, ya da ki, həyatı boyu belə fikirlərdən ayrı yaşaya bilməmiş, onun düşüncəsinə, bütün varlığına hakim kəsilmiş bu fikirləri əsər kimi qələmə aldıqdan sonra onlardan canını qurtarmış və azad nəfəs ala bilmişdir.

Oxucu bu iki izahdan hansını istəyirsə, qoy onun da üzərində dayansın.

*Viktor Hüqo*

---

1. Bu ön söz 1829-cu ildə kitabın ilk nəşrinə yazılmışdır. Əsər ikinci dəfə 1832-ci ildə nəşr olunarkən V. Hüqo əsərə edilən tənqidlərə cavab vermək üçün və həmçinin o dövr Fransa siyasi mənzərəsini çılpaqlığı ilə təsvir edərək kitaba əhatəli yeni bir ön söz yazmışdır. Bu ön söz müəyyən qədər spesifik və tarixi olduğundan onu kitabın sonunda əsərə "əlavə" kimi verməyi daha məqsədəuyğun hesab etdik. – *Parlaq İmzalar*

## Faciə barəsində komediya[1]

İŞTİRAKÇILAR:

Madam dö Blənvəl
Cəngavər
Erqast
Mərsiyəxan şair
Filosof
Kök cənab
Arıq cənab
Qadınlar
Lakey

Hadisə bir salonda baş verir.

Mərsiyəxan şair (şeir oxuyur):

.....
.....

*Sabahısı keçərdi meşəni iz, ləpirlər,*
*Çayboyu sülənərdi it hürərək nə qədər.*
*Cavan qızı həmişə göz yaşı boğan zaman,*
*Qəlbdə qorxu, həyəcan,*
*Qayıdıb oturardı üstündə qədim qəsrin;*
*İnləyən dalğaları dinlərdi qəmli İzor;*
*Yox, daha eşitmədi səsini müğənninin,*
*Susdu... susdu o mandor.*[2]

1. Biz oxucunun oxuyacağı "Edama məhkumun son günü"nün müqəddiməsini dialoq şəklində yazmağı lazım bildik. Bunu oxuyarkən həmin bu kitabın ilk nəşrlərinin hansı siyasi, mənəvi və ədəbi etirazlara səbəb olduğunu bir daha xatırlamaq lazımdır. (V. Hüqo)
2. Mandor – ud – Tərc.

Salondakılar (alqışlayırlar). Bravo! Füsunkardır! Valehedicidir!

Madam dö Blənvəl. Şeirin bu sonuncu hissəsində adamı kövrəldən nəsə anlaşılmaz bir sirr var; adam az qalır ki, ağlasın.

Mərsiyəxan şair (təvazökarlıqla). Burada faciə ört-basdır edilmiş, üstüörtülü verilmişdir...

Cəngavər (başını yellədərək). Ud, şair... Necə də romantik, şairanə səslənir!

Mərsiyəxan şair. Bəli, müsyö. Özü də yerində işlənən romantika, əsl romantika! Nə etmək olar?! Bir az güzəştə getmək lazımdır.

Cəngavər. Güzəştə getmək, axı niyə?! Elə buna görədir ki, şeirin ruhu, dadı-duzu itir də?! Deyim ki, mən bütün romantik şeirləri bu dörd misraya qurban verərdim:

*Xəbərdar edilib Ağıllı Bernar,*
*Pindarın, Siterin şeir qüdrətilə;*
*Ki, Sevmək sənəti gəlsin, təklif var,*
*Şam etsin, Həzz almaq sənəti ilə.*

Budur əsl poeziya! Sevmək sənəti axşam gəlib Həzz almaq sənəti ilə birlikdə şam edəcəkdir! Bu, təqdirəlayiqdir! Bu gün isə gəlin, udu, şairi dinləyək, şair son vaxtlar qısa şeirlər yazmır. Əgər mən şair olsaydım, qısa şeirlər yazardım. Nə edim ki, şair deyiləm...

Mərsiyəxan şair. Yenə də elegiya...

Cəngavər. Qısa şeirlər, müsyö. (yavaşcadan Madam dö Blənvələ) Bir də ki, siz "qotik qəsr" demək əvəzinə, şeirin əvvəlinci misrasında nə üçün "qədim qəsr"

deyirsiniz? Əsl fransız bu ifadəni heç vaxt sizin kimi deməz.

Qonaqlardan biri (Mərsiyəxan şairə). Bir iradım var, müsyö. Siz "qədim qəsr" deyirsiniz, nə üçün "qotik" deməyək, hə?

Mərsiyəxan şair. Şeirdə qotik deməzlər, bu söz şeirə yaddır.

Həmin qonaq. Bax bu başqa məsələ, demək, fərqi varmış.

Mərsiyəxan şair (sözünə davam edərək). Zənnimcə, aydındır. Görürsünüzmü, müsyö, bununla da kifayətlənmək lazımdır. Mən fransız şeirini korlayanlardan və müasir oxucunu Brebef və Ronsar zəmanəsinə sürükləyənlərdən deyiləm. Mən romantikəm; ancaq təmkinliyəm, özümü gözləyənəm. Bu isə hisslərə münasibətimdən irəli gəlir. Mən mülayim, zərif, həm də hüznlü, qəmli hissləri xoşlayıram, ancaq heç vaxt onları qanlı görmək, heç vaxt dəhşətli təsəvvür etmək istəmirəm. Bədbəxt hadisələrin üstünü örtmək lazımdır. Mən bilirəm, elə insanlar, elə dəlilər, elə çılğın təsvirlər var ki... Doğrusu, xanımlar, təzə romanı oxumusunuzmu?

Xanımlar. Hansı romanı?

Mərsiyəxan şair. Edama məhkumun...

Kök cənab. Bəsdir, yetər, cənablar. Sizin nə demək istədiyinizi mən yaxşı bilirəm. Onun təkcə elə adı mənim əsəblərimi yerindən oynadır.

Madam dö Blənvəl. Elə mənim də. Çox iyrənc kitabdır. O kitabdan məndə də var.

Xanımlar. Göstərin, baxaq görək! (Kitabı bir-birlərinə ötürürlər)

Qonaqlardan biri (kitabın cildindəki adı oxuyaraq). Edama məhkumun son...

Kök cənab. Rəhm edin, madam!

Madam dö Blənvəl. Doğrudan da, bu, murdar kitabdır; bu kitab adamı dəhşətə gətirir; onu oxuyandan sonra adam sarsılır, özünü puç hesab edir.

Qadınlardan biri (astadan). Bu kitabı oxumalıyam.

Kök cənab. Etiraf etmək lazımdır ki, adətlər və ənənələr gündən-günə korlanır. İlahi, nə dəhşətli fikir! Edama məhkum olunmuş bir insanın ölüm günü çəkdiyi bütün fiziki ağrıları, mənəvi sarsıntıları, ard-arda və heç birini gözdən qaçırtmadan bütün incəlikləri ilə anlatmaq, dərinliyinə enmək, incələmək! Tükürpərdici deyilmi? Belə bir fikirdə olan yazıçıların olmasını, belə bir yazıçının oxucusunun olmasını təsəvvür edə bilirsinizmi?

Cəngavər. Doğrudan da, bu özü də ağılasığmaz dərəcədə həyasız bir adamdır.

Madam dö Blənvəl. Bəs bu kitabı yazan adamın özü kimdir axı? Necə adamdır?

Kök cənab. İlk nəşrində adı göstərilməmişdi.

Mərsiyəxan şair. Həmin bu yazıçının iki başqa romanı da var... Heyif, adları yadımdan çıxıb. Birinci kitabdakı hadisələr meyitxanada başlanır və Qrev meydanında qurtarır. Hər fəsildə də adamyeyəndən bəhs edilir.

Kök cənab. Müsyö, siz özünüz həmin kitabı oxumusunuz?

Mərsiyəxan şair. Bəli, müsyö; hadisələr İslandiyada cərəyan edir.

Kök cənab. İslandiyada; bu, dəhşətdir!

Mərsiyəxan şair. Bundan əlavə, həmin bu müəllif odalar,[1] balladalar da yazır; daha nə bilim, daha dəhşətli möcüzələrdən yazır.

Kök cənab. Lənət şeytana! Belə şeirlər olsa-olsa, ancaq cəfəngiyyat olar.

Mərsiyəxan şair. Həmin müəllif drama da dərc etdirmişdir, bəli, bu, drama adlanır; orada belə gözəl bir misraya rast gəlmək olur:

Sabah, min altı yüz əlli yeddinci ilin iyun ayının iyirmi beşində.[2]

Qonaqlardan biri. Bax, bu da şeir.

Mərsiyəxan şair. Bunlar rəqəmlə də yazıla bilər, xanımlar:

Sabah, 25 iyun 1657.

(Mərsiyəxan şair gülür. Hamı gülüşür)

Cəngavər. Bəli, bugünkü şeirə xas bir şeydir bu.

Kök cənab. Belə! Bu adam da şeir yazmağı bacarmır. Hə, onun bəs adı nədir?

Mərsiyəxan şair. Onun adını nəinki yadda saxlamaq çətindir, hətta tələffüz etmək belə mümkün deyil. O, deyəsən, qotlara, vestqotlara və ostqotlara yaxındır (gülür).

Madam dö Blənvəl. Bu, çox sarsaq adamdır.

Kök cənab. İyrəncdir.

Qadınlardan biri. Onu tanıyanlardan biri mənə dedi ki...

1. Müəyyən şəxsə, qəhrəmana və ya mühüm hadisəyə həsr olunmuş təntənəli şeir, mahnı – Red.
2. "Kromvel" pyesinin ilk misrası – Red.

Kök cənab. Siz onu tanıyanlarla məgər tanışsız?

Həmin gənc qadın. Bəli. Həmin adam mənə dedi ki, bu yazıçı mülayim, sadə adamdır; özü də sakit bir guşədə yaşayır və bütün gününü öz uşaqları ilə keçirir.

Mərsiyəxan şair. Gecələri qəmli şeir yazmaqla keçirir. Qəribədir, bir baxın, bədahətən bir misra söylədim. Əsl şeirdə olduğu kimi.

Gecələri qəmli şeir yazmaq ilə keçirir.

Təkcə axırıncı sözə qafiyə tapmaq qalır. Eh! Kədərli anlar!

Madam dö Blənvəl. *Quilquid tentabat dicere, versus erat.*[1]

Kök cənab. Deməli, siz deyirdiniz ki, haqqında danışdığımız bu müəllifin uşaqları da var? Bu ola bilməz, madam. Axı belə bir əsəri o necə yaza bilir? Belə bir dəhşətli romanı!...

Qonaqlardan biri. O həmin bu kitabı nə məqsədlə yazmışdır?

Mərsiyəxan şair. Mən hardan bilim?!

Filosof. Bu kitabla mənə elə gəlir ki, o, edam hökmünün ləğv olunmasına çalışır.

Kök cənab. Mən sizə deyirəm də, bu, dəhşətdir, biabırçılıqdır!

Cəngavər. Belə de! Bu, cəlladla kəllə-kəlləyə gəlir ki?!

Mərsiyəxan şair. O, gilyotinə şiddətlə etiraz edir.

Arıq cənab. Hiss olunur ki, bütün bunlar hamısı boşboğazlıqdan başqa bir şey deyil.

1. Yəni nə danışırsa, hamısı poetik səslənir. – Tərc.

Kök cənab. Heç də belə deyil. Ölüm hökmü haqqında olsa-olsa, iki səhifə ancaq yazılıbdır. Yerdə qalan hiss və duyğulardan ibarətdir.

Filosof. Bu, yanlış və başdan-ayağa nöqsanlıdır. Bu barədə çox yazmaq olar. Drama, roman heç nəyi sübut edə bilməz. Sonrasına qalanda ki... Mən özüm bu kitabı oxumuşam, çox pis kitabdır.

Mərsiyəxan şair. Çox pis! Məgər bunu sənət adlandırmaq olarmı? Bu bütün sədləri aşmaq, hara gəldi soxulmaq deməkdir. Hələ bu cani kimdir? Onu tanısaydım, yenə dərd yarı idi?! Qətiyyən tanımıram. Axı o nə etmişdir? Heç kim bilmir. Bəlkə, elə bu heç islaholunmaz, yaramazların yaramazıdır? Məni kim vadar edə bilər ki, tanımadığım bir adamla maraqlanım?!

Kök cənab. Heç bir müəllifin öz oxucusuna fiziki əzab vermək hüququ yoxdur. Mən adamların bir-birlərini öldürdükləri faciə əsərlərini görəndə təəccüblənmirəm. Ancaq bu roman ki var ha, onu oxuyanda adamın tükləri başında biz-biz olur, qorxudan adamın əti ürpəşir, yatanda qarmaqarışıq yuxular görürsən. Həmin bu kitabı oxuyandan sonra iki gün yatağımdan qalxa bilmədim.

Filosof. Bunu da əlavə edin ki, bu, sönük və həm də adamı düşündürən bir bədii əsərdir.

Mərsiyəxan şair. Bədii əsər!.. Bədii əsərə bir bax, siz nə danışırsınız?..

Filosof. Bəli. Müsyö, indicə dediyiniz kimi, bu əsər bədii estetikadan tamamilə məhrumdur. Məni çılpaq mücərrədçilik, cəfəng ideya maraqlandırmır, əsla. Mən burada öz xasiyyətimə, şəxsiyyətimə uyğun gələn heç bir şey görmürəm. Sonrasına qalanda ki... Üslubu da sadə və aydın deyildir ki, heç olmasa

deyəsən ki, bəli, bədii əsər üslubuna oxşayır. Əsərdə o saat arxayınlıq hiss olunur. Bu elə, doğrudan da, sizin dediyiniz kimi bir əsərdir, eləmi?

Mərsiyəxan şair. Əlbəttə, şübhəsiz belədir. Şəxsiyyət burada rol oynamır.

Filosof. Edama məhkum olunanın özü maraqsız, əhəmiyyətsiz bir şəxsdir.

Mərsiyəxan şair. O, başqalarını necə maraqlandıra bilər axı? O, cinayət törətmişdir və özü də heç bir vicdan əzabı çəkmir. Mən olsaydım, əsəri tamamilə başqa cürə, başqa səpkidə yazardım. Mən edama məhkum olunmuş adamın həyatını başdan-ayağa təsvir edərdim. Nəcib, mərd ailədən çıxmış bir nəfərin həyatını. Yaxşı tərbiyə almış bir adamın məhəbbətini, qısqanclığını olduğu kimi əsərdə göstərərdim. Elə bir cinayəti qələmə alardım ki, onu cinayət adlandırmaq olmazdı. Sonra isə vicdan əzabı, vicdan əzabı və yenə də vicdan əzabı. Axı bəşər qanunları qəddardır?! O gərək ölsün; məhz elə bu yerdəcə mən ölüm cəzası məsələsini qoyardım. Bu lap yerinə düşərdi!

Madam dö Blənvəl. Ah! Doğrudan, belədir ki, var!

Filosof. Bağışlayın. Sizin dediyiniz həmin o kitab biz oxuculara heç nə verməzdi. Sizin dediyiniz belə bir məlumat bu boyda oxucu kütləsini öz ardınca apara bilməz.

Mərsiyəxan şair. Hə. Siz deyən olsun! Qəhrəman olaraq, məsələn... niyə Malzerbi,[1] xeyirxah Malzerbi seçməyib? Niyə onun son gününü, ölümünü təs-

1. Kretyen Qiyom dö Lamuanon dö Malzerb (1721-1794) – fransalı siyasi xadim, XVI Lüdovik üçün yazdığı bir əsərə görə həbs olunub, daha sonra isə edam edilib. – Red.

vir etməyib? Oh! Belə olsaydı, gözəl və ibrətamiz bir tamaşa, səhnə alınardı. Mən də ağlayardım, əsməcə tutub sarsılardım, hətta qəhrəmanla birlikdə eşafota qalxmaq istərdim.

Filosof. Mən isə qalxmazdım.

Cəngavər. Mən də. Sizin müsyö dö Malzerb, əslində, inqilabçı idi.

Filosof. Malzerbin edam edilməsi eşafota, ümumiyyətlə, ölüm hökmünə qarşı heç bir sübut-dəlil ola bilməzdi.

Kök cənab. Ölüm hökmü! Niyə bu məsələ ilə bu qədər uğraşırlar? Axı bu ölüm hökmü sizin nəyinizə lazımdır? Əgər müəllif belə bir əsəri ilə gəlib bizi vahiməyə salarsa, qəm-qüssəyə düçar edəcəksə, onda o gərək pozğun və aşağı təbəqədən olsun.

Madam dö Blənvəl. Ah! Bəli, həm də son dərəcə kobud, ədəbsiz bir adam olsun!

Kök cənab. O bizi həbsxanalara, sürgünlərə, dəlixanaya zorla aparır və məcbur edir ki, hər şeyə baxaq. Əlbəttə, bu olduqca xoşagəlməz bir haldır. Biz bilirik ki, bu yerlərin hamısı çirkabxana, zibilxanalardır; axı bunun cəmiyyətə nə dəxli var ki?

Madam dö Blənvəl. Qanunları yazanlar da uşaq deyillər, yəqin ki.

Filosof. Ah! Bununla belə, hadisələri bütün çılpaqlığı ilə cəmiyyətə açıb göstərərkən...

Arıq cənab. Eh! Burada, əslində, çatışmayan şey həqiqətin özüdür. Şair olan kəs belə şeyləri haradan bilsin? Belə şeyləri başa düşmək üçün, heç olmasa, gərək dövlətin baş prokuroru olasan. Görün bir nə deyirəm? Qəzetlərin birində həmin bu kitabdan verilmiş parçanı mən oxumuşam; həmin parçada de-

yilir ki, edam hökmünü məhkumun üzünə oxuyanda o susur, heç nə demir: amma mən bir dəfə edama məhkum olanın həmin anda dəhşətlə qışqırdığının şahidi olmuşam. Görürsünüz də nə həqiqətbazlıqdır?

Filosof. Onda icazə verin...

Arıq cənab. Qulaq asın, gilyotin, Qrev meydanı... Əvvəla, bunlar özü xoşagələn şey deyillər və onlar haqda yazmağın özü də səfehlikdir... və həm də bu dediyiniz kitab bədii zövqü korlayır; intim, yeni, təmiz hisslərimizi korşaldır. Bilmirəm, sağlam, müqəddəs ədəbiyyatın müdafiəçiləri nə vaxt ayılacaqdır? Kaş mən Akademiyanın fəxri adını daşıyaydım, onda görərdiniz ki, ittihamedici çıxışlarımda bu hüquqdan necə istifadə edərdim... Yeri gəlmişkən, müsyö Erqast ki Akademiyanın üzvüdür?! "Edama məhkumun son günü" haqqında onun fikrini bilmək pis olmazdı.

Erqast. Müsyö, vallah, mən bu kitabı nə oxumuşam, nə də onu oxumaq fikrindəyəm. Mən dünən madam Senanjın evində nahar edəndə markiz dö Morival, Hersoq Melkura həmin o kitab haqqında söhbət açdı. Deyilənlərə görə, həmin əsərdə məhkəmə idarəsinə, xüsusilə məhkəmənin sədri Alimona qarşı qərəzli fikirlər var. Abbat dö Florikurun özü də təhqir edilmişdir. Ancaq, görünür, həmin kitabda bir fəsil dinə və bir fəsil də monarxiyaya qarşı yazılmışdır. Ax, nə olaydı, Allahın altında kral prokuroru olaydım!...

Cəngavər. Bəs necə! Kral prokuroru! İxtiyarat! Mətbuat azadlığı! Gör nə günə qalmışıq ki, bir nəfər şair edam hökmünü ləğv edir, özünüz də təsdiq edirsiniz ki, bu bizi təhqir etmək deməkdir. Bundan əvvəlki quruluşumuzda dövlətin verdiyi cəzaya, işgəncəyə qarşı roman yazıb nəşr etdirmək olardı?.. Ancaq Bas-

tiliyanın alınmasından sonra hər şeyi yazırlar. Kitab isə dövlət üçün ən təhlükəlidir.

Kök cənab. Böyük bəladır. Bir özünüz fikirləşin. Əvvəllər hamı sakit yaşayırdı, heç nə haqda düşünmürdü. Fransada hərdənbir, tək-tük hallarda baş kəsilərdi... ən çoxu, həftədə iki baş kəsiləydi, ya kəsilməyəydi. Bunlar özləri də qalmaqalsız, səssiz-səmirsiz. Bu haqda nəinki bir söz deyən, heç fikirləşən də yox idi... Yox, əsla! İndi isə baxın, artıq kitab yazırlar. Belə bir kitab ancaq baş ağrısı gətirər, adamın başına cürbəcür müsibət açar!

Arıq cənab. Bu kitabı oxuyan məhkəmə iclasçılarından heç biri edam hökmünə razılıq verməz!

Erqast. Bu kitab adamın inamını qırır, ağlını azdırır.

Madam dö Blənvəl. Ah! Kitablara bax, kitablara! Kim ədəbi əsərdən belə bir şey gözləyərdi?

Mərsiyəxan şair. Məlumdur ki, kitablar, əksər hallarda xalis zəhər kimi ictimai asayişin pozulmasına səbəb olmuşdur.

Arıq cənab. Dildən danışmayın, çünki romantiklər dil haqqında da çevriliş etmək fikrindədirlər.

Mərsiyəxan şair. Müsyö, gəlin bunları bir-birilə qarışdırmayaq; romantiklər var, romantiklər var da...

Arıq cənab. Hər yerdə tərbiyəsizlik hökm sürür.

Erqast. Siz haqlısınız, biabırçılıqdır.

Arıq cənab. Adamın nitqi quruyur. Lap məəttəl qalırsan.

Filosof (Qadınlardan birinin yumşaq stuluna dirsəklənmişdir). Burada elə şeylərdən danışırsınız ki, belə sözləri heç Muxtar küçəsində də danışmazlar.

Erqast. Ah! Mənfur kitab!

Madam dö Blənvəl. Ey, bu kitabı oda atıb yandırmayın: mən onu bir nəfərdən almışam, sahibinə qaytarmalıyam.

Cəngavər. Danışın görək bizim vaxtımızda necə idi. Görün o vaxtdan bəri hər şey necə də dəyişilib: adətlər, ənənələr! Madam dö Blənvəl, o vaxtlar heç yadınıza düşürmü?

Madam dö Blənvəl. Xeyr. Müsyö. Yadıma gəlmir.

Cəngavər. Biz fransızlar ən şən, ən incə, ən ağıllı bir xalq idik. Hər yerdə böyük ziyafətlər, insanı valeh edən incə poeziya... çox gözəl vaxtlar idi! Marşal dö Mayyinin arvadının təntənəli ziyafəti münasibətilə müsyö dö Ləharpın yazdığı gözəlləmələrdən gözəl nə ola bilərdi?! Min yeddi yüz... Damyənin edam ilini deyirəm, hə?!

Kök cənab (köks ötürərək). Gözəl günlər! İndiki adət-ənənələr çox pisdir, kitablar onlardan betər. Bualonun bu misrası lap yerində deyilmişdir:[1]

*"Gözəl adət və ənənələrimiz pozulub getdikcə, incəsənət tələf olur".*

Filosof (astadan şairə). Bu evdə şam yeməyi verəcəklər, yoxsa yox?

Mərsiyəxan şair. Bəli, bir az gözləyin.

Arıq cənab. İndisə ölüm hökmünü ləğv etmək istəyirlər və buna görə də əxlaqın, mənəviyyatın pozulmasına səbəb olan iyrənc kitablar yazırlar – "Edama məhkumun son günü" kimi, daha nə bilim nə?!

Kök cənab. Bura bax, dost, bu dəhşətli kitabdan gəl bir daha söz açmayaq; deyin görək üç həftə

1. Əslində, bu misralar Bualona yox, Jilberə məxsusdur. – Fransız nəşriyyatının qeydi

bundan qabaq şikayətinə baxmadığımız o müqəssirin işi necə oldu?

Arıq cənab. Ah! Bir az səbir edin! Mən indi burada məzuniyyətdəyəm, qoy bir nəfəsimi dərim. İşə qayıdandan sonra danışarıq. Əgər bu iş çox yubanarsa, onda mən öz müavinimə yaza bilərəm...

Lakey. Madam, şam yeməyi artıq hazırdır.

# Edama məhkumun son günü

## I

Edama məhkum olunmuşdur!

Budur, düz beş həftədir ki, tək-tənha bu fikirlə yaşayıram; bu fikir bir an da olsun məni rahat buraxmır; bütün vücudu ilə mənə mənəvi əzab verir, məni dondurub; bütün ağırlığı ilə qəddimi həmişəlik əyib məni yumağa döndərib!

Əvvəllər – mənə elə gəlir ki, həmin vaxtdan həftələr yox, artıq, illər keçmişdir – mən də başqaları kimi adi bir insan idim. Hər gün, hər saat, hər dəqiqə mənim də öz fikrim vardı və hansısa bir fikirlə yaşayırdım. Mənim sağlam və iti ağlım hər şeyi kəsirdi. Həmin fikirlər mənim qarşımda həyatın incə və kobud, tükənməz naxışları kimi bir-birinin ardınca nəhayətsiz və qarmaqarışıq şəkildə açılır və məni əyləndirirdi. Həmin fikirlərin arxasında başlarında döyüşlərdə qazanılmış təmtəraqlı yepiskop papağı olan cavan qızlar, çilçırağa qərq olmuş səsli-küylü teatr salonları və yenə də qollu-budaqlı şabalıd ağaclarının altında gecə vaxtı qızlarla xəlvəti gəzintilər gəlib gözlərimin qabağında dayanardı. Təmtəraqlı ziyafət bir an da olsun xəyalımdan getməzdi. Nə istəyirdim, o haqda da düşünürdüm; çünki azad idim, sərbəst idim.

İndi isə məhbusam. Bədənim, əlim-qolum zəncirlənib, zindana düşmüşəm; ruhum, varlığım bir düşüncəyə əsir olub. Amansız, qanlı, dəhşətli düşüncəyə! İndi mənim fikrim də, əqidəm də, etiqadım da yalnız bir şeydir: edama məhkum olunmaq!

Nə edirəmsə-edim, bu dəhşətli fikir, bu cəhənnəm əzabı hər tərəfdən ağır bir kabus kimi mənə həmlə edir, tənha və qısqanc bir varlıq kimi bütün fikrimi, düşüncəmi dağıdır, məndən uzaqlaşdırır; başımı arxaya çevirmək və gözlərimi yummaq istəyəndə bu fikir buz kimi əllərilə tutub məni silkələyir. Bu fikir mənim azad olmaq məqsədilə andığım bütün xəyallara başını soxur, mənə xitabən deyilmiş sözlərin ağır dözülməz nəqəratı kimi təkrarlanır; mənimlə bərabər – iyrənc kameranın dəmir barmaqlıqlarına hopur, dincliyimi açıq-aşkar pozur, narahat yuxumda belə, məni təqib edir, qarşımda iti bir xəncər şəklində canlanır.

Elə həmin fikirlə yuxudan hövlnak oyandım və özözümə fikirləşdim: "Ah! Bu, yuxuymuş ki?!" Hə, yaxşı! Hətta ağırlaşmış kirpiklərimi açıb məni əhatə edən kameramın nəmli, kif basmış daşlarında, gecələr lampanın öləziyən, sarımtıl işığında, əynimdəki kətan parçadan geydiyim paltarın yanlarından sallanan kobud ipliklərində, kameramın arxasında patrondaşı bərq vuran gözətçinin qəmli sifətində bu məşum fikrə yenidən qapılmağa macal tapmamışdım ki, sanki nəsə bir səs qulağıma pıçıltı ilə dedi: "Edama məhkum olunmuşdur!"

## II

Bu əhvalat gözəl bir avqust səhəri baş verdi.

Üç gün idi ki, mənim məhkəməm başlanmışdı: üç gün idi ki, adım və törətdiyim cinayət cəmdək ətrafına yığılan qarğalar kimi çoxlu tamaşaçını məhkəmə salonunun skamyalarında gəlib lövbər salmağa vadar edirdi; xəstə adamın gözünə görünən əcaib-qəraib şeylər kimi üç gün idi ki, məhkəmənin bütün bu gedişatında

hamı: şahidlər, vəkillər, kral prokurorları dəfələrlə gəlib mənim qabağımdan o tərəf-bu tərəfə keçirdilər, özləri də gah gülünc, gah da yırtıcı sifətində... Həmişə də qaşqabaqlı, kədərli və dəhşətli şəkildə. Birinci iki gecəni mən narahatlıqdan və qorxudan yata bilmədim; üçüncü gecə isə kədər və yorğunluq yatmağıma kömək olmuşdu. Gecəyarısı məhkəmə iclasçıları müşavirəyə çıxanda məni indi olduğum kameraya gətirdilər. Küləş yatağıma uzanan kimi mən elə o saat da dərin yuxuya getdim – ölüm yuxusuna. Neçə günlərdən bəri bu mənim ilk istirahətim idi.

Şirin yuxudaydım ki, məni oyatdılar. Belə ki, dustaqxana gözətçisinin nallı ayaqqabılarının küt, ağır taqqıltısı, addım səsləri, böyründən asılmış bir dəstə açarın və qapı rəzələrinin cingiltisi məni yuxudan oyada bilməmişdi; indi isə məni ağır yuxudan oyadan onun gəlib lap qulağımın içinə kobud səslə qışqırması və çiynimdən tutub bərkdən silkələməsi oldu: "Hə, qalx görək!"

Gözlərimi açdım və səksəkəli halda yerimdən qalxdım. Bu vaxt kameramın dar, hündür və kiçik pəncərəsindən baxıb, mənim üçün səmanı əvəz edən dəhlizin tavanından sarımtıl, solğun parıltının içəri süzüldüyünü gördüm; gözləri həbsxana qaranlığına alışanlar bunun günəş parıltısı olduğunu yaxşı bilirlər. Mən günəşi sevirəm.

– Hava yaxşıdır, – həbsxana gözətçisinə dedim.

O mənə bir söz sərf etmək üçün zəhmət çəkməyinə dəyərmi fikrini sanki ölçüb-biçirmiş kimi bir anlığa yerindəcə donub qaldı, cavab vermədi, sonra isə çətinliklə pıçıldadı:

– Ola bilər.